# QEYRI-REZIDENTLƏRƏ "ASAN İMZA" SERTIFIKATININ TƏQDIM OLUNMASI PROSEDURUNUN TƏSVIRI

# Mündəricat


1. **Ümumi məlumat** ........ 2
2. **İlkin anlayışlar** ........ 2
3. **Qeyri-rezidentlər tərəfindən "Asan İmza" mobil elektron imzanın əldə olunması üçün ərizənin göndərilməsi** ........ 3
4. **Ərizə məlumatlarının yoxlanılması** ........ 3
5. **Qeyri-rezidentlərə virtual FİN-in verilməsi** ........ 4
6. **Qeyri-rezidentlər üçün mobil nömrə və "Asan İmza" xidmətinin aktivləşdirilməsi** ........ 5
7. **Qeyri-rezidentlər üçün "Asan İmza" sertifikatının emal və çap olunması** ........ 5
8. **Qeyri-rezidentlər üçün "Asan İmza" sertifikatının çatdırılması, təqdim olunması və aktivləşdirilməsi** ........ 6
9. **Əlaqə məlumatları və mobil nömrənin balansının artırılması** ........ 7

## 1. Ümumi məlumat

Bu sənəd Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə qeyri-rezidentlərə "Asan İmza" sertifikatının verilməsi prosesinin təsviri: müraciətlərin qəbulu, ərizənin doldurulması, təqdim olunan sənədlərin siyahısı, ərizə və ona əlavə olunmuş sənədlərin digər dövlət orqanları tərəfindən yoxlanılması, İAMAS tərəfindən qeyri-rezidentə "virtual FİN"in verilməsi ilə bağlı prosedurları əks etdirir.

Diplomatik nümayəndəliklər və konsulluqlar vasitəsilə qeyri-rezidentlərə "Asan İmza" sertifikatının verilməsi "Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 12 sentyabr tarixli 1598 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə qeyri-rezidentlərə elektron imza sertifikatının verilməsi Qaydası" ilə müəyyən edilir.

## 2. İlkin anlayışlar

Təlimatda aşağıdakı anlayışlardan istifadə olunur:

**"İAMAS"** – Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi;

**"Virtual FİN"** – elektron imza, o cümlədən "Asan İmza" verilməsi məqsədilə portal vasitəsilə daxil olmuş müraciətlərlə bağlı müsbət qərar qəbul olunmuş qeyri-rezidentlərə İAMAS sistemi vasitəsilə verilən, hərflərdən və rəqəmlərdən ibarət unikal fərdi identifikasiya nömrəsi;

**"E-qeyri-rezident"** altsistemi – qeyri-rezidentlərin elektron imza, o cümlədən "Asan İmza" ilə bağlı müraciətlərini qəbul və təhlil edən, onlara "virtual FİN" verən, habelə "virtual FİN" verilmiş qeyri-rezidentlərin reyestrinin aparıldığı İAMAS sistemində yaradılmış altsistem;

**Sertifikat** - imza sahibini identikləşdirmək üçün nəzərdə tutulan və elektron imzanı yoxlama məlumatlarının imza sahibinə məxsus olması barədə sertifikat xidmətləri mərkəzinin verdiyi kağız və ya elektron sənəd;

**Asan Sertifikat Xidmətləri Mərkəzi (ASXM)** - elektron imza üçün sertifikat verən və imzaların istifadəsi üzrə "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş digər xidmətləri göstərən Azərbaycan Respublikası Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi;

**"Asan İmza"** (mobil elektron imza) – elektron imza vasitəsi kimi mobil telefon və xüsusi SIM kart tələb edən Azərbaycan Respublikası Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi (ASXM) tərəfindən təqdim edilən gücləndirilmiş elektron imza vasitəsi - mobil telefon üçün xüsusi SİM-kart, həm telefon nömrəsinin, həm də elektron imza yaratma və elektron imza yoxlama məlumatlarının fiziki daşıyıcısı;

**"Asan İmza" PİN kodları** – "Asan İmza" SİM-kartının istifadəsinə imkan verən fərdi, təhlükəsiz identifikasiya kodlarıdır. Bu kodlar "Asan İmza" SİM-kartının üzərində çap olunaraq, pozulan qat altında gizlədilir. Şəxsiyyətin təsdiqlənməsi üçün PİN1-dən və imzalamaq üçün PİN2-dən istifadə edilir;

**VÖEN** – Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq vergi ödəyicilərinin vergi orqanlarında vahid prinsiplər əsasında uçota alınması məqsədilə onlara 10 (on) rəqəmdən ibarət vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN).

## 3. Qeyri-rezidentlər tərəfindən "Asan İmza" mobil elektron imzanın əldə olunması üçün ərizənin göndərilməsi

"Asan İmza" mobil elektron imzanı əldə etmək üçün ərizənin göndərilməsi proseduru aşağıdakı mərhələlərdən ibarətdir:

4.1 İstifadəçi www.dth.az portalına daxil olur.

4.2 İstifadəçi "Asan İmza" sertifikatının alınması barədə açılmış ərizə formasını doldurur.

4.3 İstifadəçi ödənişi həyata keçirdir və ərizə qeydiyyata alınaraq ona əlavə edilmiş sənədlərlə birlikdə portal vasitəsilə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə göndərilir.

## 4. Ərizə məlumatlarının yoxlanılması

"Asan İmza" mobil elektron imzanı əldə etmək üçün göndərilmiş ərizə məlumatların yoxlanması aşağıdakı mərhələlərdən ibarətdir:

5.1 İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin operatoru **dth.az** portala daxil olur .

5.2 İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin operatoru tərəfindən 3 (üç) iş günü ərzində ərizə məlumatların tamlığı yoxlanılır və çatışmazlıq aşkar edilmədikdə, ərizə

real vaxt rejimində qeydiyyata alınaraq ona əlavə edilmiş sənədlərlə birlikdə portal vasitəsilə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə yönəldilir.

5.3 Müraciət edən şəxsin ərizəsində qeyd olunmuş elektron poçt ünvanına ərizənin qeydiyyata alınması barədə bildiriş göndərilir.

****Qeyd:*** Ərizə məlumatlarında çatışmazlıq aşkar olunduqda, müraciət edən şəxsin ərizəsində qeyd olunmuş elektron poçt ünvanına məlumat verilir və 7 (yeddi) iş günü ərzində İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə yenilənmiş məlumat təqdim olunur. Təqdim olunmadığı təqdirdə müraciət edən şəxsin elektron poçt ünvanına ərizənin qəbul edilməməsi barədə məlumat göndərilir.

## 5. Qeyri-rezidentlərə virtual FİN-in verilməsi

Qeyri-rezidentlərə virtual FİN-in verilməsi proseduru aşağıdakı mərhələlərdən ibarətdir:

6.1 Daxili İşlər Nazirliyinin operatoru **dth.az** portala daxil olur.

6.2 Ərizə məlumatları **"e-qeyri-rezident"** altsistemi daxilində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Xarici İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və Xarici Kəşfiyyat Xidmətinə yönəldilir.

6.3 Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Xarici İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və Xarici Kəşfiyyat Xidməti tərəfindən 3 (üç) iş günü müddətində ərizədə qeyd olunan bütün məlumatlar yoxlanılır və ərizəyə dair mənfi rəy verilmədikdə, "Giriş-çıxış və qeydiyyat" İAMAS tərəfindən qeyri-rezidentə "virtual FİN" verilir. Xaricdə daimi yaşayan Azərbaycan Respublikasının vətəndaşlarına mövcud şəxsiyyət vəsiqələrinin fərdi identifikasiya nömrəsi (FİN) təqdim olunacaq. Müvafiq qurumlar tərəfindən ərizəyə mənfi rəy bildirildikdə bu haqda istifadəçinin elektron poçt ünvanına məlumat göndərilir.

6.4 Ərizə və ona əlavə olunmuş sənədlər portal vasitəsilə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə göndərilir.

## 6. Qeyri-rezidentlər üçün mobil nömrə və "Asan İmza" xidmətinin aktivləşdirilməsi

Qeyri-rezidentlər üçün mobil nömrə və "Asan İmza" xidmətinin aktivləşdirilməsi proseduru aşağıdakı mərhələlərdən ibarətdir:

7.1 İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin operatoru **dth.az** portala daxil olur.

7.2 İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzin operatoru Mobil Operator tərəfindən təqdim olunmuş proqram təminatından istifadə edərək qeyri-rezidentə aid mobil nömrə, rouminq xidməti və "Asan İmza" xidmətini aktivləşdirir. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin operatoru 3 (üç) nüsxədə mobil nömrəyə aid abunə müqaviləsini, 1 (bir) nüsxədə rouminq xidmətinə qoşulma forması və 2 (iki) nüsxədə Abunə Müqaviləsinə Əlavə ""Asan İmza" xidmətinə qoşulma/imtina forması"nı çap edir*.

**Qeyd:* İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi mobil nömrəyə aid abunə müqaviləsi 1(bir) nüsxədə və Abunə Müqaviləsinə Əlavə ""Asan İmza" xidmətinə qoşulma/imtina forması"nı 1(bir) nüsxədə <u>30 (otuz) təqvim günü</u> müddətində imzalanmış şəkildə müvafiq Mobil Operatora təqdim etməlidir.

7.3 Ərizə və ona əlavə olunmuş sənədlər portal vasitəsilə ASXM-ə göndərilir.

## 7. Qeyri-rezidentlər üçün "Asan İmza" sertifikatının emal və çap olunması

Qeyri-rezidentlər üçün Asan İmza sertifikatının emal və çap olunması aşağıdakı mərhələlərdən ibarətdir:

8.1 ASXM-in operatoru icraya gələn ərizə barədə elektron poçt vasitəsilə məlumat alır.

8.2 ASXM-in operatoru Asan Sertifikatlarının Qeydiyyatı Proqramını açır (bundan sonra ASQP) və ərizəni emal edir, 2 (iki) nüsxədə müqaviləni və sertifikatı çap edir və ASQP sistemində **"İcraya göndər"** düyməsindən istifadə edir. Ərizə **dth.az** portalı vasitəsilə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə göndərilir.

8.3 Çap olunan sənədlər ASXM-in operatoru tərəfindən imzalanır və paketlənir.

8.4 ASXM tərəfindən 2 (iki) nüsxədə müqavilə, sertifikatın aktivləşdirilməsi barədə bildiriş və sertifikatlar Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə təqdim olunmaq üçün 1 iş günü ərzində müvafiq aktla Azərbaycan Respublikasının İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə təhvil verilir.

## 8. Qeyri-rezidentlər üçün "Asan İmza" sertifikatının çatdırılması, təqdim olunması və aktivləşdirilməsi

Qeyri-rezidentlər üçün Asan İmza sertifikatının çatdırılması, təqdim olunması və aktivləşdirilməsi aşağıdakı mərhələlərdən ibarətdir:

9.1 İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi mobil nömrəyə və sertifikata aid sənədləri təhvil alır və 1 iş günü ərzində Xarici İşlər Nazirliyinə təhvil verir.

9.2 Xarici İşlər Nazirliyinin operatoru sənədləri təhvil alır və ərizədə qeyd olunmuş diplomatik nümayəndəliyə özəl kuryer şirkətilə göndərir (Sənədlər 14 iş günü ərzində diplomatik nümayəndəliyə çatdırılır).

9.1 Diplomatik nümayəndəliyin operatoru 1(bir) iş günü ərzində ərizədə qeyd olunmuş telefon vasitəsilə qeyri-rezidenti həmin diplomatik nümayəndəliyinə dəvət edir və nümayəndəliyə gələrək portal vasitəsi ilə təqdim olunmuş sənədlərin əslini və biometrik identifikasiya tələblərinə uyğun 1 ədəd rəngli fotoşəkli (3,5x4,5 sm ölçüdə) təqdim olunması tələbi barədə məlumat verir .

9.2 Qeyri-rezident təyin olunmuş vaxtda diplomatik nümayəndəliyə gələrək, portal vasitəsilə təqdim olunmuş sənədlərin əslini, habelə biometrik identifikasiya tələblərinə uyğun 1 ədəd rəngli fotoşəkli (3,5x4,5 sm ölçüdə) təqdim edir. Diplomatik nümayəndəlik sənədlərin əsli ilə portalda real vaxt rejimində təqdim olunmuş sənədlərin autentikliyini yoxladıqdan sonra sənədlərin əslini qeyri-rezidentə qaytarır.

9.3 Portalda real vaxt rejimində təqdim olunmuş məlumatlarla qeyri-rezidentin təqdim etdiyi məlumatlarda uyğunsuzluq aşkar edilərsə, diplomatik nümayəndəlik sertifikatın verilməsindən imtina edir və "virtual FİN"-in ləğv edilməsi ilə bağlı portal vasitəsilə "e-qeyri-rezident" altsistemində müvafiq qeyd aparır.

9.4 Diplomatik nümayəndəliyin operatoru tərəfindən 2 (iki) nüsxədə "Asan İmza" SİM kartı üzrə Sertifikat xidmətlərinin göstərilməsi haqqında" müqavilə, 3 (üç) nüsxədə mobil nömrəyə aid

abunə müqaviləsini, 1 (bir) nüsxədə rouminq xidmətinə qoşulma forması və 2 (iki) nüsxədə Abunə Müqaviləsinə Əlavə ""Asan İmza" xidmətinə qoşulma/imtina forması"nı imzalamaq üçün qeyri-rezidentə təqdim edilir. Ərizəçi tərəfindən müqavilələr imzalandıqdan sonra həmin müqavilələrin bir nüsxəsi, "Asan İmza" sertifikatı , sertifikatın aktivləşdirilməsi barədə bildiriş və "Asan İmza" SİM kartı qeyri-rezidentə təqdim edir, müqavilələrin digər nüsxələri isə paketlənib özəl kuryer şirkətilə Xarici İşlər Nazirliyinə göndərir (Sənədlər 14 iş günü ərzində Xarici İşlər Nazirliyinə çatdırılır).

9.5 ASXM-in operatoru portal vasitəsi ilə icraya gələn ərizə barədə elektron poçt vasitəsilə məlumat alır.

9.6 ASXM-in operatoru ASQP sistemini açır və "Asan İmza" sertifikatını aktivləşdirir, sertifikatın aktivləşdirilməsi barədə bildiriş hazırlanır və qeyri-rezidentin ərizədə qeyd olunan elektron poçt ünvanına göndərilir.

9.7 Xarici İşlər Nazirliyi sənədləri aldıqdan sonra 1(bir) iş günü ərzində İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə təhvil verir.

9.8 İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyindən alınmış "Asan İmza" SİM kartı üzrə Sertifikat xidmətlərinin göstərilməsi haqqında" müqaviləni 3 (üç) iş günü müddətində ASXM-ə müvafiq təhvil-təslim aktı ilə təhvil verir. Mobil nömrəyə aid imzalanmış abunə müqaviləsinin 1 (bir) nüsxəsi İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində saxlanılır, digər nüsxəsi isə ""Asan İmza" xidmətinə qoşulma/imtina forma" Əlavəsi ilə müvafiq Mobil Operatora təhvil verilir.

## 9. Əlaqə məlumatları və mobil nömrənin balansının artırılması

Mobil nömrə balansının artırılması üçün qeyri-rezidentlər aşağıda qeyd olunan linklərdən istifadə edə bilərlər:

1. **Hesab.az:**

➢ Azercell

https://hesab.az/unregistered/#/mobile/azercell_non-resident/parameters?portalPay=azercell_non-residentweb&lang=az

https://hesab.az/unregistered/#/mobile/azercell_non-resident/parameters?portalPay=azercell_non-residentweb&lang=en

https://hesab.az/unregistered/#/mobile/azercell_non-resident/parameters?portalPay=azercell_non-residentweb&lang=ru

- Bakcell

https://hesab.az/unregistered/#/mobile/bakcell_non-resident/parameters?portalPay=bakcell_non-residentweb&lang=az

https://hesab.az/unregistered/#/mobile/bakcell_non-resident/parameters?portalPay=bakcell_non-residentweb&lang=en

https://hesab.az/unregistered/#/mobile/bakcell_non-resident/parameters?portalPay=bakcell_non-residentweb&lang=ru

- Azerfon

https://hesab.az/unregistered/#/mobile/nar_non-resident/parameters?portalPay=nar_non-residentweb&lang=az

https://hesab.az/unregistered/#/mobile/nar_non-resident/parameters?portalPay=nar_non-residentweb&lang=en

https://hesab.az/unregistered/#/mobile/nar_non-resident/parameters?portalPay=nar_non-residentweb&lang=ru

**2. Hökümət ödəniş portalı:**

https://gpp.az/GPEWebPortal/Infosite/Default

Əlavə məlumat almaq üçün:

Office@azexport.az

info@asanimza.az

***Azercell abunəçiləri üçün:***

- (012)4 90 49 49
- 2002